IQRO JURNALI , IQRO JOURNAL, ИКРО ЖУРНАЛИ
ISSN:2181-4341| wordlyknowledge.uz/index.php/iqro
Volume 24. Issue 01. Oktabr, 2026

İŞĞALDAN AZAD EDİLMİŞ ƏRAZİLƏRDƏ KƏNDLƏRİN VƏ TARİXİ ABİDƏLƏRİN BƏRPASI



Kərimova Nigar
ADPU-nun nəzdində Azərbaycan
Dövlət Pedaqoji Kolleci
Müəllim
krimovanigar20@gmail.com
https://doi.org/10.5281/zenodo.23421568

Xülasə. Azərbaycanın müasir tarixində 2020-ci il Vətən müharibəsindən sonra başlanmış bərpa və quruculuq prosesi ölkənin sosial-iqtisadi inkişafı, tarixi-mədəni irsinin mühafizəsi və əhalinin məskunlaşma sisteminin yenidən təşkili baxımından mühüm mərhələdir. Təxminən otuz il davam etmiş işğal nəticəsində Qarabağ və Şərqi Zəngəzurun yaşayış məntəqələrinin, istehsal sahələrinin, yollarının və ictimai infrastrukturunun əhəmiyyətli hissəsi dağıdılmış, tarixi abidələrin bir çoxu zədələnmiş, əhalinin doğma yurdları ilə gündəlik əlaqələri kəsilmişdir. Yaşayış məkanlarının uzun müddət öz əhalisindən ayrı düşməsi yalnız binaların və mühəndis qurğularının sıradan çıxması ilə nəticələnməmiş, kəndlərin tarixən formalaşmış sosial münasibətlərinə, təsərrüfat ənənələrinə, mədəni həyatına və nəsillərarası yaddaşın davamlılığına da təsir göstərmişdir. İşğaldan azad edilmiş ərazilərin bərpası buna görə yalnız tikinti və abadlıq işlərinin həyata keçirilməsi kimi qiymətləndirilə bilməz. Bu proses əhalinin geri qayıdışını, yaşayış məntəqələrinin fəaliyyətinin bərpasını, tarixi-mədəni sərvətlərin qorunmasını və müasir inkişaf tələblərinə uyğun yeni həyat şəraitinin yaradılmasını əhatə edir.

Açar sözlər. Qarabağa qayıdış, qayıdış konsepsiyası, tarixi bərpa, social-iqtisadi inkişaf, mədəni irsin mühafizəsi

2020-ci il sentyabrın 27-də başlamış və 44 gün davam etmiş Vətən müharibəsi nəticəsində Azərbaycanın bir sıra işğal olunmuş əraziləri azad edilmiş, 10 noyabr tarixli üçtərəfli bəyanatın icrası çərçivəsində Ağdam, Kəlbəcər və Laçın rayonları Azərbaycana qaytarılmışdır [7]. Sonrakı illərdə ölkənin ərazi bütövlüyü və suverenliyi ilə bağlı proseslər yeni mərhələyə keçmişdir. Bununla yanaşı, işğaldan azad edilmiş torpaqlarda qarşıya çıxan problemlərin miqyası göstərmişdir ki, hərbi əməliyyatların başa çatması həmin ərazilərdə normal yaşayışın dərhal bərpası demək deyildir. Mina təhlükəsi, dağıdılmış yaşayış məntəqələri, istifadəyə yararsız vəziyyətə düşmüş infrastruktur, kənd təsərrüfatı sahələrinin fəaliyyətinin dayanması və tarixi

abidələrin zədələnməsi genişmiqyaslı, uzunmüddətli və əlaqələndirilmiş tədbirlərin həyata keçirilməsini zəruri etmişdir [8].

2022-ci il noyabrın 16-da təsdiq olunmuş "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nda əhalinin dayanıqlı məskunlaşması və ərazilərin iqtisadi fəaliyyətə reinteqrasiyası başlıca məqsədlər kimi müəyyənləşdirilmişdir. Proqramda yaşayış məntəqələrinin salınması, müasir kommunal və nəqliyyat infrastrukturunun qurulması, sosial xidmətlərin təşkili, ekoloji təhlükəsizliyin təmin edilməsi, iqtisadi fəaliyyətin dirçəldilməsi və tarixi abidələrin qorunması bir-biri ilə əlaqəli vəzifələr kimi nəzərdə tutulmuşdur [2, b. 5]. Bu yanaşma bərpanın yalnız fiziki tikinti prosesi deyil, ərazilərin ictimai və iqtisadi həyata yenidən qoşulması ilə bağlı kompleks fəaliyyət olduğunu göstərir.

İşğaldan azad edilmiş ərazilərdə kəndlərin bərpası xüsusi əhəmiyyət daşıyır. Qarabağ və Şərqi Zəngəzurun tarixi məskunlaşma sistemində kəndlər uzun müddət əkinçilik, maldarlıq, bağçılıq, sənətkarlıq və digər təsərrüfat sahələrinin əsas məkanları olmuşdur. Kənd ailə və qohumluq münasibətlərinin, yerli adət-ənənələrin, məhəllə əlaqələrinin və tarixi yaddaşın qorunduğu sosial mühitdir. Bu baxımdan kəndlərin yenidən qurulması zamanı müasir yaşayış standartları ilə həmin məkanların tarixi xüsusiyyətləri arasındakı münasibətin nəzərə alınması mühüm məsələdir. Yeni yaşayış binalarının, məktəblərin, tibb müəssisələrinin və yolların istifadəyə verilməsi kənd həyatının fiziki əsaslarını formalaşdırsa da, sosial icmanın yenidən təşəkkülü, təsərrüfat fəaliyyətinin bərpası və nəsillərarası əlaqələrin gücləndirilməsi daha geniş zaman tələb edə bilər.

İşğaldan azad edilmiş ərazilərdə bərpa prosesinin tarixi və sosial-iqtisadi əsasları. İşğaldan azad edilmiş ərazilərdə aparılan bərpa işlərinin mahiyyətini müəyyənləşdirmək üçün həmin ərazilərdə yaşayışın və təsərrüfat fəaliyyətinin uzun müddət dayanmasının nəticələri nəzərə alınmalıdır. İşğal dövründə dağıdılmış yaşayış məntəqələrinin yenidən qurulması ayrı-ayrı evlərin təmir edilməsindən daha mürəkkəb prosesdir. Kəndin fəaliyyət göstərməsi üçün yaşayış binaları ilə yanaşı, yol, elektrik enerjisi, içməli su, rabitə, təhsil, səhiyyə və təsərrüfat infrastrukturu da tələb olunur. Bu elementlərin hər hansı birinin olmaması məskunlaşmanın davamlılığına təsir göstərə bilər. Buna görə yenidənqurma layihələrinin qarşısında duran əsas vəzifələrdən biri kəndlərin bütün zəruri imkanlara malik yaşayış məkanları kimi formalaşdırılmasıdır.

Bəzi mənbələrdə bu məsələyə müxtəlif istiqamətlərdən yanaşılmışdır. Ərazinin və yenidənqurma fəaliyyəti, nəqliyyat və rabitə təminatı, əhali və sosial xidmətlər, kənd təsərrüfatının bərpası, mədəniyyət və turizm sahələrinin inkişafı ayrıca araşdırılır [6, 49-72]. Müxtəlif sahələrin eyni tədqiqat daxilində nəzərdən keçirilməsi postmünaqişə bərpasının çoxşaxəli xarakterini göstərir. Kəndlərin yenidən qurulmasının yalnız tikinti ilə məhdudlaşmaması, iqtisadi və sosial münasibətlərin də bərpasını tələb etməsi bu baxımdan əsas məsələlərdəndir.

Dövlət Proqramında təhlükəsizlik məsələsi əsas istiqamətlərdən biri kimi müəyyənləşdirilmişdir. Sənəddə işğaldan azad edilmiş ərazilərdə "ərazilərin minalardan və digər partlayıcı sursatlardan təmizlənməsi" prioritet vəzifə kimi nəzərdə tutulur [2, b. 6.2.1]. Bununla yanaşı, minatəmizləmə prosesinin nəzərdə tutulan müddətdən artıq davam etməsi proqramın icrasında mümkün risklərdən biri kimi qiymətləndirilmişdir. Bu məqam bərpa işlərinin planlaşdırılmasında təhlükəsizlik amilinin yalnız ilkin mərhələdə deyil, bütün proses ərzində nəzərə alınmalı olduğunu göstərir.

Ərazilərin təhlükəsizliyinin təmin edilməsi ilə yanaşı, infrastrukturun yenidən qurulması da əhəmiyyətli vəzifədir. Kənd yaşayış məntəqələrinin ölkənin ümumi nəqliyyat və kommunikasiya sisteminə qoşulması onların iqtisadi və sosial inkişafı üçün mühüm şərtdir. Kənd təsərrüfatı məhsullarının daşınması, əhalinin təhsil və səhiyyə xidmətlərindən istifadə etməsi, sahibkarlıq fəaliyyətinin inkişafı yolların və digər kommunikasiya vasitələrinin mövcudluğundan asılıdır. Bu baxımdan yeni avtomobil yollarının, enerji xətlərinin və rabitə şəbəkələrinin qurulması təkcə texniki infrastrukturun yaradılması deyil, həm də yaşayış məntəqələri arasında əlaqələrin bərpası kimi qiymətləndirilə bilər.

Dövlət Proqramında yaşayış məntəqələrinin bərpası üçün "texnoloji, demoqrafik və ekoloji şərtlərin təsiri altında dünyada dəyişən qlobal şəhər planlaşdırma tendensiyaları"nın nəzərə alınması tələb edilir [2, b. 6.2.2]. Yenidənqurma işləri yalnız əvvəlki yaşayış formasının bərpasına deyil, müasir həyat tələblərinə uyğun məskunlaşma sisteminin yaradılmasına yönəlmişdir. Lakin müasir standartların tətbiqi ilə yerli tarixi-mədəni xüsusiyyətlərin qorunması arasında uyğunluğun təmin edilməsi də bərpa layihələrinin keyfiyyətini müəyyənləşdirən mühüm məsələlərdəndir.

Kəndlərin yenidən qurulması və müasir məskunlaşma modelinin formalaşması. Qarabağ və Şərqi Zəngəzurda kəndlərin bərpasının əsas xüsusiyyətlərindən biri yaşayış məntəqələrinin müasir planlaşdırma prinsipləri əsasında yenidən təşkil edilməsidir. Bu yanaşma kəndi yalnız fərdi yaşayış evlərinin yerləşdiyi ərazi kimi deyil, sosial xidmətlərin, istehsal sahələrinin, ictimai məkanların və kommunal infrastrukturun qarşılıqlı əlaqədə fəaliyyət göstərdiyi bütöv sistem kimi nəzərdən keçirməyə imkan verir. Məktəblərin, uşaq bağçalarının, səhiyyə müəssisələrinin, xidmət obyektlərinin və ictimai istirahət məkanlarının yaşayış əraziləri ilə əlaqəli şəkildə yerləşdirilməsi kənd həyatının gündəlik ehtiyaclarına uyğun mühit yaratmaq məqsədi daşıyır.

Yaşayış binaları ilə yanaşı, təhsil, səhiyyə, kommunal xidmətlər və iqtisadi fəaliyyət imkanlarının eyni yaşayış mühitində formalaşdırılması qayıdışın davamlılığını təmin etməyə yönəlmiş yanaşma kimi nəzərdən keçirilməlidir [3]. Bu yanaşma kəndlərin bərpasında sosial infrastrukturun rolunu daha aydın göstərir. Ənənəvi kənd mühitində məktəb, ictimai toplantı məkanları və müxtəlif təsərrüfat obyektləri kənd icmasının formalaşmasında mühüm yer tutmuşdur. Müasir şəraitdə həmin funksiyalar daha geniş sosial xidmət şəbəkəsi vasitəsilə həyata keçirilir. Bununla belə, infrastrukturun mövcudluğu ilə sosial icmanın formalaşması arasında fərq vardır. Yeni məktəb binası təhsil üçün zəruri şərait yaratsa da, kənddə təhsil ənənələrinin və sosial münasibətlərin davamlılığı müəllimlərin, ailələrin və yerli ictimai mühitin qarşılıqlı fəaliyyəti ilə bağlıdır.

Kəndlərin yenidən qurulması zamanı məşğulluq imkanlarının yaradılması da mühüm şərtdir. Qarabağ və Şərqi Zəngəzurun bir çox yaşayış məntəqələrinin tarixi inkişafı kənd təsərrüfatı ilə bağlı olmuşdur. Əkinçilik, maldarlıq, bağçılıq və digər təsərrüfat sahələri kənd əhalisinin həyatında mühüm yer tutmuş, yaşayış məntəqələrinin ərazi üzrə yerləşməsinə və sosial münasibətlərinə təsir göstərmişdir. İşğal nəticəsində həmin təsərrüfat sistemlərinin fəaliyyətinin dayanması kəndlərin iqtisadi əsaslarını zəiflətmişdir. Buna görə qayıdışdan sonrakı mərhələdə təsərrüfat həyatının dirçəldilməsi yaşayış evlərinin tikintisi qədər əhəmiyyətli məsələdir.

Dövlət Proqramında "kənd təsərrüfatının müxtəlif sahələrinin inkişafı, müasir suvarma infrastrukturunun formalaşdırılması, torpaq ehtiyatlarından səmərəli istifadə və sahibkarlığın dəstəklənməsi" əsas vəzifələr sırasında göstərilir [2, b. 5.2]. Bu tədbirlərin əhəmiyyəti kəndin

iqtisadi fəaliyyətini yalnız əvvəlki vəziyyətinə qaytarmaqla məhdudlaşmır. Müasir texnologiyalardan istifadə etməklə təsərrüfat məhsuldarlığının yüksəldilməsi, emal və xidmət sahələrinin yaradılması, bazarlara çıxışın genişləndirilməsi kəndlərin gələcək inkişafı üçün əlavə imkanlar yarada bilər.

Məskunlaşma prosesində əhalinin əvvəlki yaşayış məntəqələri ilə əlaqəsinin nəzərə alınması da zəruridir. Məcburi köçkünlük dövründə insanlar müxtəlif şəhər və rayonlarda məskunlaşmış, yeni əmək və sosial münasibətlər qurmuşlar. Doğma yurda qayıdış bu baxımdan təkcə yaşayış yerinin dəyişdirilməsi deyil, uzun illər ərzində formalaşmış həyat şəraitinin yenidən təşkil edilməsi deməkdir. Qayıdış qərarına ailə üzvlərinin məşğulluğu, uşaqların təhsili, səhiyyə ehtiyacları və digər sosial amillər təsir göstərə bilər. Buna görə məskunlaşmanın təşkilində insanların fərdi və ailəvi ehtiyaclarının nəzərə alınması davamlı nəticələrin əldə edilməsi baxımından əhəmiyyətlidir.

Tarixi kənd mühitinin bərpası və sosial yaddaşın davamlılığı. Kəndlərin yenidən qurulması məsələsində tarixi yaddaşın qorunması ayrıca əhəmiyyət daşıyır. Kəndin tarixi yalnız onun yaranma vaxtı, inzibati mənsubiyyəti və əhali sayı ilə müəyyənləşmir. Yaşayış məntəqəsinin adı, məhəllələri, nəsil münasibətləri, qəbiristanlıqları, bulaqları, təsərrüfat sahələri, yerli mərasimləri və digər xüsusiyyətləri həmin kəndin sosial-mədəni tarixinin tərkib hissəsidir. Uzun müddət yaşayışdan kənarda qalmış kəndlərin bərpası zamanı bu elementlərin öyrənilməsi tarixi davamlılığın qorunmasına kömək edə bilər.

Qarabağ kəndlərinin tarixi yaddaşı yaşayış məntəqələrinin yaranma şəraiti, nəsil şəcərələri, yerli adət-ənənələr, təhsil mühiti və ictimai münasibətlərin qarşılıqlı əlaqəsi əsasında formalaşmışdır. Narınclar kəndinin tarixi inkişafında nəsillərarası bağlılıq, ənənəvi məişət xüsusiyyətləri və yerli mədəni dəyərlər mühüm yer tutmuşdur [4, 138-274]. Kəndin yalnız yaşayış məkanı deyil, həm də tarixi təcrübəni nəsildən-nəslə ötürən sosial-mədəni mühit olması onun bərpasında maddi infrastrukturla yanaşı, mənəvi irsin qorunmasını da zəruri edir.

Tarixi kənd mühitinin bərpasında yerli toponimlərin, məhəllə adlarının və digər coğrafi adların qorunması da vacibdir. Kəndin daxilində və ətrafında işlənən yer adları bəzən həmin ərazinin təsərrüfat tarixi, təbii şəraiti, məskunlaşma xüsusiyyətləri və nəsil münasibətləri haqqında məlumat daşıyır. Bu adların sənədləşdirilməsi kəndlərin tarixi-coğrafi yaddaşının öyrənilməsinə imkan verir. Müasir layihələndirmə zamanı yerli adların və tarixi məkanların nəzərə alınması yaşayış məntəqəsinin əvvəlki sosial-mədəni mühiti ilə yeni quruluşu arasında əlaqənin qorunmasına kömək edə bilər. Kəndin sosial yaddaşında qəbiristanlıqların, məscidlərin, tarixi bulaqların və köhnə yaşayış sahələrinin xüsusi yeri vardır. Bu məkanlar müəyyən ailələrin və nəsillərin keçmişi, kənddə yaşamış insanların xatirəsi, dini-mədəni ənənələr və ictimai münasibətlərlə bağlıdır. Buna görə kəndlərin bərpası zamanı həmin obyektlərin mövcud vəziyyətinin öyrənilməsi və mümkün olduğu hallarda qorunması mühüm vəzifələrdən biri kimi nəzərdən keçirilməlidir.

Kəndlərin tarixi mühitinin qorunması ilə bağlı digər məsələ yerli təsərrüfat ənənələrinin müasir iqtisadi fəaliyyətlə əlaqələndirilməsidir. Müəyyən kəndlərdə tarixən inkişaf etmiş əkinçilik, maldarlıq, bağçılıq və digər təsərrüfat sahələri həmin ərazinin təbii və sosial xüsusiyyətləri ilə bağlı olmuşdur. Yeni mərhələdə bu sahələrin bərpası zamanı həm yerli təcrübədən, həm də müasir aqrar texnologiyalardan istifadə etmək mümkündür. Əsas məsələ ənənəvi fəaliyyət formalarını yalnız

keçmişin elementi kimi deyil, müasir inkişaf üçün müəyyən təcrübə mənbəyi kimi də nəzərdən keçirməkdir.

Tarixi abidələrin bərpası və mədəni irsin qorunması. İşğaldan azad edilmiş ərazilərdə həyata keçirilən yenidənqurma prosesinin mühüm istiqamətlərindən biri tarixi-mədəni abidələrin bərpasıdır. Qarabağ və Şərqi Zəngəzurda müxtəlif tarixi dövrlərə aid memarlıq nümunələrinin mövcudluğu həmin ərazilərin ictimai, iqtisadi və mədəni inkişafının öyrənilməsi baxımından əhəmiyyət daşıyır. Məscidlər, türbələr, qalalar, körpülər, karvansaralar, tarixi yaşayış evləri və digər tikililər yalnız memarlıq xüsusiyyətləri ilə deyil, yarandıqları dövrün ictimai münasibətləri, dini-mədəni ənənələri və təsərrüfat həyatı haqqında məlumat vermələri ilə də seçilir. Buna görə onların bərpası zamanı fiziki quruluşlarının yenilənməsi ilə yanaşı, tarixi mahiyyətinin və mədəni funksiyalarının qorunması da nəzərə alınmalıdır.

İşğal dövründə zədələnmiş və dağıdılmış abidələrin vəziyyətinin öyrənilməsi bərpa fəaliyyətinin ilkin mərhələsini təşkil edir. Hər bir abidənin tarixi, əvvəlki memarlıq quruluşu, tikinti materialları, mövcud texniki vəziyyəti və əvvəlki müdaxilələr haqqında məlumatların toplanması bərpa layihələrinin hazırlanması üçün zəruridir. Abidələrin mühafizəsi yalnız onların zahiri görünüşünün yenilənməsi ilə məhdudlaşdırıldıqda tarixi orijinallığın itirilməsi təhlükəsi yarana bilər. Bu səbəbdən bərpa, konservasiya və yenidənqurma anlayışlarının fərqləndirilməsi, hər bir obyektə onun xüsusiyyətlərinə uyğun yanaşılması vacibdir.

Azərbaycanın işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramında tarixi-mədəni irsin qorunması yaşayış məntəqələrinin bərpası ilə əlaqəli vəzifələr sırasında nəzərdə tutulmuşdur. Sənəddə "tarixi abidələrin bərpası və qorunması işinin təşkili, abidələrin inventarlaşdırılması, pasportlaşdırılması, mühafizə zonalarının müəyyən edilməsi" əsas vəzifələr kimi göstərilir [2, b. 6.2.2]. Bu müddəanın əhəmiyyəti ondadır ki, tarixi abidələrin bərpası ayrı-ayrı tikinti təşəbbüsləri səviyyəsində deyil, dövlətin ümumi ərazi planlaşdırılması və mədəni irsin mühafizəsi siyasəti çərçivəsində nəzərdən keçirilir.

İnventarlaşdırma və pasportlaşdırma abidələrin qorunmasında mühüm mərhələlərdir. İnventarlaşdırma vasitəsilə obyektin mövcudluğu, yerləşdiyi ərazi, tarixi xüsusiyyətləri və vəziyyəti haqqında məlumatlar sistemləşdirilir. Pasportlaşdırma isə həmin məlumatların hüquqi və texniki sənədlərdə rəsmiləşdirilməsinə xidmət edir. Mühafizə zonalarının müəyyənləşdirilməsi abidələrin ətraf mühitinin qorunması, yeni tikililərin tarixi məkanla uyğunlaşdırılması və obyektlərin gələcəkdə mümkün zədələnmələrdən müdafiəsi baxımından əhəmiyyətlidir. Belə tədbirlər xüsusilə müasir şəhərsalma layihələrinin həyata keçirildiyi tarixi yaşayış məntəqələrində vacibdir [5, s.23].

Tarixi abidənin ətraf mühitindən ayrılıqda qiymətləndirilməsi onun mədəni əhəmiyyətinin tam müəyyənləşdirilməsinə mane ola bilər. Məscid yerləşdiyi məhəllənin dini və ictimai həyatı, körpü tarixi yol və nəqliyyat əlaqələri, qala müdafiə sistemi, yaşayış evi isə müəyyən dövrün məişət xüsusiyyətləri ilə bağlıdır. Buna görə abidələrin bərpası zamanı onların əvvəlki funksiyalarının, ətrafdakı yaşayış mühitinin və digər tarixi obyektlərlə əlaqələrinin də öyrənilməsi məqsədəuyğundur [5, s.26].

Qarabağ və Şərqi Zəngəzurun tarixi-mədəni irsinin mühüm hissəsini təşkil edən məscidlər, ev-muzeyləri, qalalar, məqbərələr və digər memarlıq abidələri bölgənin zəngin tarixi keçmişini, dini-mənəvi dəyərlərini və mədəni inkişaf xüsusiyyətlərini əks etdirir. Bu abidələrin bərpası və

mühafizəsi tarixi-memarlıq irsinin qorunması ilə yanaşı, bölgədə mədəni həyatın yenidən canlandırılması və turizm imkanlarının genişləndirilməsi baxımından da əhəmiyyət daşıyır [6, 153-185]. Tarixi tikililərin əvvəlki memarlıq xüsusiyyətləri saxlanılmaqla bərpa edilməsi onların mədəni dəyərinin gələcək nəsillərə ötürülməsinə şərait yaradır. Eyni zamanda həmin obyektlərin muzey, ziyarət və mədəniyyət məkanları kimi ictimai həyata qaytarılması tarixi yaddaşın davamlılığını təmin edir, yerli mədəni mühitin dirçəlməsinə və bölgənin sosial-iqtisadi inkişafına əlavə imkanlar açır.

Tarixi abidələrin bərpasında mədəniyyət müəssisələrinin fəaliyyətinin yenidən təşkili də əhəmiyyətlidir. Muzeylərin, sərgi məkanlarının, kitabxanaların və digər mədəniyyət obyektlərinin yaradılması tarixi irsin onun öyrənilməsinə və ictimaiyyətə təqdim edilməsinə imkan verir. Bu baxımdan abidələrin mühafizəsi ilə maarifləndirmə və elmi tədqiqat fəaliyyəti arasında əlaqənin qurulması zəruridir. Abidə haqqında tarixi məlumatların toplanması, arxiv sənədlərinin araşdırılması, fotoşəkillərin və memarlıq planlarının müqayisəsi onun bərpa tarixinin gələcək nəsillərə çatdırılması üçün də əhəmiyyət daşıyır.

Şuşanın tarixi-memarlıq irsinin bərpası. İşğaldan azad edilmiş ərazilərdə mədəni irsin bərpasının mühüm nümunələrindən biri Şuşa şəhəridir. Qarabağın tarixi-mədəni mərkəzlərindən olan Şuşa memarlıq irsi, ədəbi mühiti və musiqi ənənələri ilə Azərbaycan mədəniyyətində xüsusi yer tutur. Şəhərin tarixi tikililəri yalnız ayrı-ayrı memarlıq nümunələri deyil, onun ictimai və mədəni həyatının müxtəlif mərhələlərini əks etdirən obyektlərdir. Buna görə Şuşanın bərpası zamanı tarixi şəhər mühitinin qorunması, memarlıq abidələrinin mühafizəsi və mədəni həyatın yenidən təşkili bir-biri ilə əlaqəli şəkildə nəzərdən keçirilməlidir.

Şuşanın tarixi-memarlıq irsində məscidlər mühüm yer tutur. Yuxarı Gövhər Ağa, Aşağı Gövhər Ağa və Saatlı məscidləri şəhərin dini-mədəni həyatının inkişafı, memarlıq üslubunun formalaşması və tarixi məhəllə quruluşunun öyrənilməsi baxımından əhəmiyyətlidir. Bu tikililərin bərpası zamanı əvvəlki memarlıq xüsusiyyətlərinin müəyyənləşdirilməsi, zədələnmiş konstruksiyaların möhkəmləndirilməsi və tarixi elementlərin qorunması vacib məsələlərdəndir.

Şuşanın tarixi-memarlıq irsində mühüm yer tutan Yuxarı Gövhər Ağa, Aşağı Gövhər Ağa və Saatlı məscidlərinin bərpası zamanı onların ilkin memarlıq quruluşunun, tarixi xüsusiyyətlərinin və bədii tərtibat elementlərinin qorunmasına xüsusi diqqət yetirilmişdir. Azərbaycan, Avstriya, İtaliya, Latviya və Türkiyədən olan mütəxəssislərin iştirakı ilə aparılmış qiymətləndirmə işləri abidələrin mövcud vəziyyətinin öyrənilməsinə, zədələnmiş hissələrin müəyyənləşdirilməsinə və bərpa layihələrinin hazırlanmasına imkan yaratmışdır. Məscidlərin bərpasında tarixi orijinallığın saxlanılması, konstruksiyaların möhkəmləndirilməsi, minarələrin, dam və döşəmə örtüklərinin yenilənməsi, eləcə də memarlıq elementlərinin əvvəlki görkəminə uyğunlaşdırılması əsas istiqamətlər kimi müəyyənləşdirilmişdir [6, 169]. 2022-ci ildə müxtəlif mərhələlərdə həyata keçirilən bu tədbirlər Şuşanın dini-mədəni abidələrinin mühafizəsi və tarixi şəhər mühitinin bərpası baxımından əhəmiyyətli olmuşdur.

Tarixi məscidlərin bərpası onların yalnız dini ibadət məkanı kimi fəaliyyətinin yenidən təşkili ilə məhdudlaşmır. Bu obyektlər memarlıq tarixinin, şəhər mühitinin və mədəni yaddaşın öyrənilməsi üçün əhəmiyyətli mənbələrdir. Onların divar quruluşu, naxışları, yazıları, günbəz və minarələri, istifadə olunmuş tikinti materialları aid olduqları dövrün memarlıq ənənələri haqqında

məlumat verir. Bu baxımdan bərpa prosesində tarixi orijinallığın qorunması həmin abidələrin elmi əhəmiyyətinin saxlanılmasına da xidmət edir.

Şuşanın mədəni irsinin bərpasında görkəmli şəxsiyyətlərlə bağlı xatirə məkanlarının mühafizəsi ayrıca yer tutur. Üzeyir Hacıbəylinin, Bülbülün və Xurşidbanu Natəvanın həyat və yaradıcılığı ilə bağlı məkanlar şəhərin tarixi-mədəni simasının mühüm tərkib hissəsidir. Bu obyektlərin qorunması Azərbaycan musiqisi və ədəbiyyatının inkişaf tarixinin öyrənilməsi baxımından əhəmiyyətlidir.

Xurşidbanu Natəvanın, Üzeyir Hacıbəylinin və Bülbülün büstlərinin Şuşanın mərkəzi meydanında yenidən yerləşdirilməsi, Bülbülün yaşadığı evin bərpa edilərək muzey kimi fəaliyyətə başlaması şəhərin tarixi-mədəni mühitinin dirçəldilməsi istiqamətində həyata keçirilən mühüm tədbirlərdəndir [1]. Bu mədəniyyət obyektlərinin bərpası Azərbaycan ədəbiyyatının və musiqi sənətinin görkəmli nümayəndələrinin xatirəsinin yaşadılmasına, onların yaradıcılıq irsinin təbliğinə və gələcək nəsillərə çatdırılmasına xidmət edir. Eyni zamanda, tarixi şəxsiyyətlərlə bağlı xatirə məkanlarının yenidən ictimai istifadəyə qaytarılması Şuşanın mədəni həyatının canlanmasına, şəhərin tarixi simasının qorunmasına və milli-mədəni yaddaşın davamlılığının təmin edilməsinə şərait yaradır.

Şuşanın tarixi irsinə daxil olan Vaqif türbəsi, qala divarları, karvansaralar, tarixi bulaqlar və digər obyektlər də şəhərin müxtəlif inkişaf mərhələlərini öyrənmək baxımından əhəmiyyətlidir. Bu abidələrin hər biri müəyyən tarixi funksiyanı yerinə yetirmiş, şəhərin ictimai və mədəni həyatında xüsusi mövqe tutmuşdur. Onların bərpası ilə bağlı qərarlar qəbul edilərkən həmin funksiyaların və tarixi mühitlə əlaqələrin nəzərə alınması mədəni irsin qorunmasının əsas şərtlərindən biridir.

Şuşanın bərpası müasir şəhərsalma ilə tarixi memarlığın qarşılıqlı münasibətləri baxımından da maraq doğurur. Tarixi şəhər mühitində yeni infrastrukturun yaradılması zamanı müasir texniki tələblərin yerinə yetirilməsi ilə memarlıq irsinin qorunması arasında uyğunluq təmin edilməlidir. Nəqliyyat, kommunal və xidmət obyektlərinin təşkili tarixi küçə quruluşuna, abidələrin vizual görünüşünə və mühafizə zonalarına təsir göstərə bilər. Buna görə şəhərin inkişafına dair layihələrin tarixi-mədəni irsin qorunması prinsipləri ilə əlaqələndirilməsi vacibdir.

Tarixi abidələrin bərpasının turizm və regional inkişafdakı rolu. Tarixi-mədəni abidələrin qorunması Qarabağ və Şərqi Zəngəzurun gələcək iqtisadi inkişafı baxımından da müəyyən imkanlar yaradır. Memarlıq abidələrinin, muzeylərin və tarixi məkanların bərpası mədəni turizmin inkişafına, yeni xidmət sahələrinin yaranmasına və bölgələrin ölkənin digər əraziləri ilə iqtisadi əlaqələrinin genişlənməsinə şərait yarada bilər. Bununla belə, abidələrin turizm məqsədilə istifadəsi onların tarixi-mədəni dəyərinin qorunması prinsipinə uyğun təşkil olunmalıdır.

Şuşanın tarixi-mədəni obyektləri ilə yanaşı, Cıdır düzü, İsa bulağı, Turşsu və digər təbii məkanların turizm imkanlarına diqqət yetirilir. Bölgənin mədəniyyət və turizm potensialının inkişafı ilə əhalinin yaşayış və iqtisadi fəaliyyət imkanlarının genişlənməsi arasında əlaqə qurulur [6, s.198]. Bərpa olunan tarixi obyektlərin gələcək istifadəsində elmi tədqiqat və maarifləndirmə fəaliyyətinin təşkili xüsusi əhəmiyyət daşıyır. Abidələr haqqında məlumat lövhələrinin hazırlanması, muzey ekspozisiyalarının qurulması, elektron məlumat bazalarının yaradılması və müxtəlif yaş qrupları üçün maarifləndirici proqramların təşkili həmin obyektlərin tarixi dəyərinin daha geniş ictimaiyyətə çatdırılmasına imkan verir.

Nəticə. İşğaldan azad edilmiş ərazilərdə kəndlərin və tarixi abidələrin bərpası Azərbaycanın postmüharibə inkişafının sosial-iqtisadi və mədəni istiqamətlərini birləşdirən kompleks prosesdir. Kəndlərin yenidən qurulması əhalinin təhlükəsiz yaşayışının təmin edilməsini, müasir infrastrukturun yaradılmasını, məşğulluq imkanlarının genişləndirilməsini və tarixi məskunlaşma ənənələrinin qorunmasını tələb edir. Tarixi-mədəni abidələrin bərpası isə onların memarlıq xüsusiyyətlərinin, orijinallığının, ətraf mühitlə əlaqələrinin və ictimai-mədəni funksiyalarının mühafizəsi baxımından əhəmiyyətlidir. Ağalı kəndində həyata keçirilmiş müasir yaşayış modeli və Şuşanın tarixi-memarlıq irsi ilə bağlı bərpa tədbirləri bu prosesin fərqli istiqamətlərini göstərir. Kəndlərin və abidələrin bərpasının uzunmüddətli nəticələri onların gələcək istifadəsindən, sosial-iqtisadi davamlılığından və tarixi-mədəni dəyərlərin qorunması üçün həyata keçiriləcək tədbirlərin ardıcıllığından asılı olacaqdır.

Ədəbiyyat

1. Abdullayev M. Qarabağa necə qayıdırıq? // Yeni Azərbaycan qəzeti. 23 iyun 2022. URL: https://www.yeniazerbaycan.com/Iqtisadiyyat_e71000_az.html
2. Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramının təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 16 noyabr 2022-ci il tarixli, 3587 nömrəli Sərəncamı. Bakı, 2022. URL: https://president.az/az/articles/view/57883
3. Caspianinfo.az. Qarabağda Böyük Qayıdış: yeni yaşayış məntəqələri necə qurulur? // Caspianinfo.az. 8 oktyabr 2026. URL: https://caspianinfo.az/news/14028/qarabagda-boyuk-qayidis-yeni-yasayis-menteqeleri-nece-qurulur
4. Əjdəroğlu N. Zəfərdən el-oba irsimizə. Bakı: Müəllim, 2023, 396 s.
5. İbayev V. Suverenliyin zəfər yolu: reallaşan ideyalar, hüquqi əsaslar, siyasi paralellər. Bakı: Hüquq və İnsan Haqları İnstitutu, 2025, 466 s.
6. İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi. Yeni Qarabağnamə. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında post-konflikt quruculuğu. Bakı: AzPrint, 2022, 217 s.
7. Süleymanov M., Süleymanlı N. Vətən müharibəsinin salnaməsi. II cild. Bakı: Maarif, 2025, 536 s.
8. Süleymanov M., Süleymanlı N. Vətən müharibəsinin salnaməsi. III cild. Bakı: Maarif, 2025, 504 s.